## “Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 164 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 30 aprel 2020-ci il
156

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Pedaqoji fəaliyyətlə məşğul olma

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 36-1.1-ci və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 27.1-ci maddələrinə uyğun olaraq hazırlanmışdır və pedaqoji fəaliyyətlə məşğul olma qaydasını müəyyən edir.

1.2. Bu Qaydanın tələbləri Qanunun 2.3-cü maddəsi nəzərə alınmaqla Azərbaycan Respublikasının bütün ümumi təhsil müəssisələrinə şamil edilir.

### 2. Pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ olan şəxslər

2.1. Müvafiq ixtisas üzrə pedaqoji təhsilə malik olan şəxslər Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olmaq hüququna malikdirlər.

2.2. Bu Qaydanın 3.2-ci *bəndi* nəzərə alınmaqla, müvafiq ixtisas üzrə pedaqoji təhsili olmayan ali təhsilli mütəxəssislərin də pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ vardır.[1]

2.3. Qanunun 36-1.2-ci maddəsinə uyğun olaraq, aşağıdakı şəxslər pedaqoji fəaliyyətlə məşğul ola bilməzlər:

2.3.1. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslər;

2.3.2. ağır, xüsusilə ağır cinayət törətməsinə görə məhkumluğu üstündən götürülməmiş və ya ödənilməmiş şəxslər;

2.3.3. fəaliyyət qabiliyyətsizliyinə və ya məhdud fəaliyyət qabiliyyətli olmasına, habelə barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər;

2.3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarı ilə təsdiq edilmiş siyahıda göstərilən xəstəliklərə görə pedaqoji fəaliyyətlə məşğul olmasına qadağa qoyulmuş şəxslər.

2.4. Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi “Müəllimlərin etik davranış qaydaları”nı pozduğuna görə əmək müqaviləsinə xitam verilmiş pedaqoji işçi 1 (bir) il müddətində pedaqoji fəaliyyətlə məşğul ola bilməz.

### 3. Pedaqoji fəaliyyətlə məşğul olmaq üçün ixtisas tələbləri

3.1. Bu Qaydanın 2.1-ci və 2.2-ci bəndlərində göstərilən şəxslər pedaqoji fəaliyyətlə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 57-ci maddəsinə uyğun olaraq, təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası ilə müəyyən edilmiş ixtisas tələblərinə əsasən məşğul ola bilərlər.

3.2. Pedaqoji təhsilə malik olmayan ali təhsilli mütəxəssislərin yalnız bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş ümumtəhsil fənlərinin tədrisi üzrə ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ vardır.

3.3. Bu Qaydanın *4.2-ci bəndinin birinci cümləsinə uyğun olaraq müəllimlərin işə qəbulu müsabiqəsinin nəticəsinə əsasən işə qəbul olunmuş* pedaqoji təhsilə malik olmayan ali təhsilli mütəxəssislər baza təhsilindən asılı olaraq pedaqogika, psixologiya və təlim strategiyaları ilə bağlı Azərbaycan Respublikasının Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən təşkil olunan müvafiq ödənişsiz təlim kurslarına cəlb olunurlar. Təlim kurslarının keçirilməsi vaxtı, yeri, davametmə müddəti və digər şərtləri Nazirlik tərəfindən müəyyən edilir və bu barədə Nazirliyin rəsmi internet səhifəsində məlumat yerləşdirilir. Təlim kurslarını başa vurmuş şəxslərə forması Nazirlik tərəfindən müəyyən edilən sertifikat verilir.[2]

## 4. Yekun müddəalar

4.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş "*Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"nın 6.2-ci* bəndinə əsasən, kənd rayonlarında yerləşən dövlət ümumi təhsil müəssisələrində kadr çatışmazlığı olduqda, məzmun və mahiyyət etibarilə uyğun fənlərin (kimya-biologiya, biologiya-kimya, fizika-riyaziyyat, riyaziyyat-fizika, riyaziyyat-informatika, informatikariyaziyyat, tarix-coğrafiya, coğrafiya-tarix) müvafiq fənn müəllimi tərəfindən tədrisinə Nazirliyi məlumatlandırmaqla, təhsil müəssisələri tərəfindən yol verilir. [3]

4.2. Pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ olan şəxslərin dövlət ümumi təhsil müəssisələrinə qəbulu Nazirlik tərəfindən keçirilən müəllimlərin işə qəbulu müsabiqəsinin nəticələrinə əsasən aparılır. *Müsabiqəyə buraxılan ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların siyahısı hər il müsabiqədən əvvəl Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilir.* [4]

"Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"na

**əlavə**

**Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) ümumi təhsil pilləsində tədris olunan fənlərə uyğunluğu**

| Sıra -si | Təsnifat üzrə ixtisasların (proqramların) şifri və adı | | İxtisasın uyğun gəldiyi ümumtəhsil fənni |
|---|---|---|---|
| 1 | 2 | | 3 |
| **Humanitar və sosial ixtisaslar qrupu** | | | |
| 1. | 050201 | Filologiya (dil və ədəbiyyat göstərilməklə) | dil və ədəbiyyat |
| 2. | 050206 | Tarix | tarix |
| **Mədəniyyət və incəsənət ixtisaslar qrupu** | | | |
| 3. | 050303 | İnstrumental ifaçılıq | musiqi |
| 4. | 050304 | Solo oxuma | musiqi |
| 5. | 050305 | Dirijorluq | musiqi |
| 6. | 050306 | Bəstəkarlıq | musiqi |
| 7. | 050307 | Musiqişünaslıq | musiqi |
| 8. | 050309 | Estrada sənəti | musiqi |
| 9. | 050310 | Xalq çalğı alətləri ifaçılığı | musiqi |
| 10. | 050312 | Dekorativ sənət | təsviri incəsənət |
| 11. | 050318 | Rəngkarlıq | təsviri incəsənət |
| 12. | 050319 | Qrafika | təsviri incəsənət |
| 13. | 050321 | Dizayn | təsviri incəsənət |
| **Təbiət ixtisasları qrupu** | | | |
| 14. | 050501 | Riyaziyyat | riyaziyyat |
| 15. | 050502 | Mexanika | fizika, riyaziyyat |
| 16. | 050503 | Fizika | fizika |
| 17. | 050504 | Kimya | kimya |
| 18. | 050505 | Biologiya | biologiya |
| 19. | 050506 | Coğrafiya | coğrafiya |
| 20. | 050509 | Kompüter elmləri | informatika |
| **Texniki və texnoloji ixtisaslar qrupu** | | | |
| 21. | 050627 | Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi | informatika |
| 22. | 050631 | Kompüter mühəndisliyi | informatika |
| 23. | 050633 | Memarlıq | təsviri incəsənət |
| 24. | 050641 | Kimya mühəndisliyi | kimya |
| 25. | 050655 | İnformasiya texnologiyaları | informatika |
| 26. | 050656 | Sistem mühəndisliyi | informatika |
| **Səhiyyə, rifah və xidmət ixtisasları qrupu** | | | |
| 27. | 050809 | Bədən tərbiyəsi və idman | fiziki tərbiyə |
| 28. | 050814 | Məşqçi (idman növü üzrə) | fiziki tərbiyə |
| 29. | 050815 | Bədən tərbiyəsi və idmanda reabilitasiya | fiziki tərbiyə |

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 21 iyun 2022-ci il tarixli **233** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 iyun 2022-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 674**)

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 21 iyun 2022-ci il tarixli **233** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 iyun 2022-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 674**) ilə "Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nın 2.2-ci bənddə "**və 3.3-cü bəndlərinin tələbləri**" sözləri "**bəndi**" sözü ilə əvəz edilmişdir.

[2] 21 iyun 2022-ci il tarixli **233** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 iyun 2022-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 674**) ilə "Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nın 3.3-cü bənddə "**3.2-ci bəndində göstərilən halda**" sözləri "**4.2-ci bəndinin birinci cümləsinə uyğun olaraq müəllimlərin işə qəbulu müsabiqəsinin nəticəsinə əsasən işə qəbul olunmuş**" sözləri ilə əvəz edilmişdir.

[3] 21 iyun 2022-ci il tarixli **233** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 iyun 2022-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 674**) ilə "Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nın 4.1-ci bənddə "**Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın 6.3-cü** " sözləri "**Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"nın 6.2-ci**" sözləri ilə əvəz edilmişdir.

[4] 21 iyun 2022-ci il tarixli **233** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 iyun 2022-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 674**) ilə "Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nın 4.2-ci bəndə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.